# Qalib Azərbaycanın Qələbə strategiyası



***İldırım sürətli müharibə ilə düşməni təslim edib sülhə məcbur etmək strateji düşüncənin və çox uğurlu diplomatik qələbənin parlaq nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində çox parlaq şəkildə bunu bacardı.***

***Azərbaycanı bu tarixi Qələbəyə aparan strategiyanın müəllifi Prezident İlham Əliyevin yönəltdiyi 17 illik strateji xətt təhlil edilmədən ona verilən istənilən qiymət natamam olacaq. Çünki Qələbə yalnız 44 günlük zəfər yürüşündə qazanılan gerçək nəticədir. Eyni zamanda, qısaca qeyd etmiş olsaq, bu Qələbə 17 il ərzində zərgər dəqiqliyi ilə hazırlanmış, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə hesablanmış, uğurla reallaşdırılan nəhəng strateji proqramın məntiqi nəticəsidir.***

Azərbaycan Prezidenti İlham Əliyevin strateji düşüncəsinin məhsulu olan strateji planlarının 17 illik tarixini diqqətlə izləyəndə aydın görünür ki, o, Birinci Qarabağ müharibəsində demokratiya və ədalət haqqında ucadan danışan "qabaqcıl", "sivil" dövlətlərin gözü qarşısında əraziləri amansızlıqla işğal olunan, xüsusi qəddarlıq və zorakılıqla etnik təmizlənməyə, təhqir və amansızlıqlara məruz qalan xalqının gələcək nəsillər qarşısında bu xəcalət yükünü tarix boyu daşımasına imkan verməzdi.

Heydər Əliyevə və ondan sonra hakimiyyətə gələn İlham Əliyevə dünyanın siyasi reallıqları, yağı düşmənin havadarlarının, beynəlxalq güclərin regiondakı siyasi və iqtisadi maraqları və onların Qarabağ münaqişəsindən zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malik, Cənubi Qafqazın incisi olan Azərbaycana qarşı öz maraqlarını təmin etmək üçün təzyiq vasitəsi kimi istifadə etmələri gün kimi aydın idi. Ona görə də bu amansız və qəddar oyunçularla daha ehtiyatlı, daha çevik və müdrik davranmaq lazım gəlirdi.

Digər tərəfdən, dünyanın siyasi pəncərəsindən görünən mənzərə aydın göstərirdi ki, bu beynəlxalq güclər öz maraqlarını təmin etmək üçün bəlli ölkələrdə ələ aldıqları müxalif və xəyanətkar qüvvələrin yardımı ilə demokratiya və insan haqlarının "kobud şəkildə pozulması" bəhanəsi altında rəngli inqilablara meydan açır, itaət göstərməyən ölkələrdə vətəndaş müharibəsi alovlandırır, istəklərinə nail ola bilməyəndə isə yerli hakimiyyətlərin devrilməsi üçün, heç bir beynəlxalq hüquqa və qanuna məhəl qoymadan, sınanmış metod kimi beşinci kolonların qondarma "xalq müraciəti" ilə silahlı müdaxilədən belə çəkinmirdilər. Bu gerçəkliklər İraqda, Liviyada, Tunisdə, Ukraynada, Misirdə, Suriyada və yeraltı sərvətlərlə zəngin olan bəzi ölkələrdə, XXI əsrin elə ilk illərindən tarixin qanlı səhifələrinə çevrilməyə başladı. Hətta qoca Qərbin özündən belə yan keçməyən, tarixə Serbiya, Kosova hadisələri kimi yazılan və dünyanın siyasi düzənini dəyişmək üçün atılan belə namərd addımlar demokratiya və insan hüquqlarına necə xidmət edə bilərdi ki, bu beynəlxalq oyunçuların əmri ilə yağdırılan bombalar, atəş saçan silahlar milyonlarla insanın dinc həyatına qəsd edir, insanları rəzil və səfil günlərə qoyurdu. Hanı onların İraqda, Liviyada, Suriyada qurduğu demokratik hakimiyyət? Onun şahidi olan kimsə varmı? Əvəzində görünən nədir - terror, zorakılıq, vətəndaş qarşıdurması, aclıq, səfalət və ən dəhşətlisi ardı-arası kəsilməyən insan ölümləri.

Heydər Əliyevin hakimiyyətə gəlişindən qısa bir müddət sonra müşahidə edilən bu idi ki, müdrik siyasi xadim Ermənistanla nə sülh, nə müharibə ehtiva etməyən atəşkəs müddətindən Azərbaycanın dünya düzənində yerini tapması üçün ustalıqla istifadə etdi. Həm strateji resurslar, həm hərbi güc, həm də beynəlxalq münasibətlər baxımından, Azərbaycan sürətlə dünyanın nüfuzlu dövlətləri sırasında öz yerini tutmağa istiqamət götürmüşdü. 1993-2003-cü illərdə Heydər Əliyevin, ondan sonrakı 17 ildə isə Prezident İlham Əliyevin hakimiyyəti illərində regionda geostrateji mövqelər Azərbaycanın xeyrinə dəyişmişdi. Azərbaycan bir çox beynəlxalq layihələri reallaşdırmaqla enerji daşıyıcıları, nəqliyyat-logistika sahəsində, regionda qlobal güclərin toqquşa biləcəyi məqamlarda isə (Rusiya-Türkiyə münasibətlərinin gərginləşdiyi vaxtlarda) barışdırıcı missiyası ilə əslində ciddi beynəlxalq oyunçuya çevrilmişdi.

Aydın məsələdir ki, tarix yerində durub saymır, yeni nəsillər onu davam etdirir və keçmiş məğlubiyyətlərinin əvəzini çıxmağa şərait və məqam gözləyirlər. Ermənistanın Birinci Qarabağ savaşında qazandığı müvəqqəti uğur eyforiyasını yaşayan yaşlı nəsil isə yeni nəsilləri öz məğlubedilməzliyinə o qədər arxayın saldılar ki, onlar Azərbaycan dövlətinin strateji planlarına, iqtisadi, siyasi, ordu quruculuğu sahəsində sıçrayışına əhəmiyyət belə vermək istəmədilər. Başları "Böyük Ermənistan" xülyası ilə dumanlanmış bu insanlar ağıllarına belə gətirmirdi ki, onların qaniçən ata-babalarının qonşularını xüsusi qəddarlıqla doğma yurd-yuvalarından qovub işğal etdikləri torpaqlardan bir gün özləri qovulacaq, qurduqları planlar alt-üst ediləcək.

Azərbaycan prezidentləri Heydər Əliyevin, daha sonra İlham Əliyevin simasında 26 ildən artıq bir müddətdə qan tökülmədən dədə-baba torpaqlarımızın qaytarılmasına, münaqişənin danışıqlar masasında həllinə səy göstərildi. Etiraf etmək lazımdır ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə nəticəsi olmayan bu danışıqlar uzandıqca Ermənistan daha da həyasızlaşır, Azərbaycan xalqına həqarətdən belə çəkinmir, işğal etdiyi ərazilərdə vandalizm aktları törədir, xarici ölkələrdən gətirdiyi erməni əsilli vətəndaşları Azərbaycanın ərazilərində məskunlaşdırırdı. Qəribədir ki, onların bu beynəlxalq cinayətinə münaqişənin həllinə cavabdeh olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri və onları təmsil edən diplomatlar belə heç bir reaksiya göstərmirdilər.

Azərbaycan xalqının gözü qarşısında baş verən bu tarixi faktlar bir daha göstərdi ki, çox şeylərə qadir olan diplomatiya, heç də hər şeyi etmək gücündə deyil. Diplomatiya, hansı incəliklə reallaşmasına baxmayaraq, ölkənin müdafiə, iqtisadi və siyasi problemlərini bütünlüklə həll etmək iqtidarında ola bilməz. Diplomatlar generalları, iqtisadçıları və siyasətçiləri əvəz edə bilməz, xüsusən də döyüş meydanında itirilənləri danışıqlar masasında qazanmaq olduqca çətindir. Diplomatların uğur qazanması üçün onların sözünün arxasında təmsil etdikləri ölkənin gerçək gücü dayanmalıdır. Bu mənada əlbəttə, dövlət rəhbəri kimi İlham Əliyev, ilk gündən Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün təmin edilməsində ən etibarlı zəmanəti qədim Roma prinsipinin həyata keçirilməsində görürdü: "Əgər sülh istəyirsinizsə, müharibəyə hazırlaşın."

## 44 günlük müharibədə qazanılan qələbə 17 illik çevik və müdrik fəaliyyətin məntiqi nəticəsi idi

### Qələbənin baş məşqi – Aprel döyüşləri

2016-cı ilin aprelində Ermənistanın cəbhə xəttində törətdiyi növbəti təxribatına cavab olaraq Azərbaycan Ordusu əks hücum əməliyyatı həyata keçirdi. Tarixə "dördgünlük müharibə" adı ilə düşən bu döyüşlərdə rəsmi Bakı bir çox strateji yüksəklikləri ələ keçirdi. Bu lokal döyüşlərin nəticələri nə Ermənistan, nə də beynəlxalq güclərin Azərbaycan Ordusunun zəifliyi haqqında təsəvvürlərini sanki dəyişmədi. Əslində bu müharibə həm münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsdrlərinə, həm də Ermənistana bir mesaj idi. Buna baxmayaraq, nə İrəvandan, nə Minsk qrupundan münaqişənin həlli üçün yeni bir təşəbbüs özünü göstərmədi. Status-kvo onları tamamilə qane edirdi, daha çox isə Ermənistanı. Azərbaycan isə öz liderinin və prezidentinin simasında tam qətiyyətlə bəyan edirdi ki, bu status-kvo ilə qətiyyən barışmayacaq.

Prezident İlham Əliyev münaqişənin gec-tez müharibə yolu ilə həllini çoxdan görürdü və hər çıxışında da bütün dünyaya bu xəbərdarlığı səsləndirirdi. Beynəlxalq oyunçular bu çıxışları elə də ciddiyə almaq istəmirdilər və düşünürdülər ki, Azərbaycan müharibəyə başlamağa cəsarət etməz. Çünki Ermənistanın yeni hərbi-siyasi rəhbərliyi öz ordusunun "məğlubedilməz"liyindən, işğal etdiyi torpaqlarda qurduğu istehkamlardan o qədər arxayın danışırdı ki, onun himayəçiləri artıq müharibənin başlanacağı təqdirdə Azərbaycanın daha çox torpaq itkisinə məruz qalacağına və bundan sonra qondarma "Dağlıq Qarabağ Respublikasının" müstəqilliyini tanımaqdan başqa çarəsinin olmayacağına ümid bəsləyirdilər. Əslində Ermənistanı xristian həmrəyliyi naminə dəstəkləyən, eləcə də dünya erməni lobbisinin pul gücünə qabaqcıl Qərb dövlətlərinin rəsmi dairələrində ələ aldıqları himayədarlarının ciddi cəhdlərinin kökündə də bu amil dayanırdı.

Qələbənin baş məşqi hesab edilən dördgünlük Aprel döyüşlərindən sonra atəşkəs elan edildi və münaqişənin həllinə cavabdeh olan qüvvələr yenə köhnə, sınadıqları yolla getməyə başladılar. 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Qərbin inqilabi ssenarisi ilə hakimiyyətə gələn Paşinyan ilk dövrlər Dağlıq Qarabağ münaqişəsini ən qısa zamanda həll edəcəyi ilə bağlı mesajlar verməyə başladı. Amma müəyyən müddətdən sonra kütləni şirin vədlərlə aldadıb hakimiyyətə gəlmiş baş nazir 26 illik danışıqlarda əldə edilmiş bütün razılaşmaların üstündən xətt çəkdi. Paşinyan Qarabağ kartından ölkə daxilində həyata keçirdiyi bərbad sosial-iqtisadi siyasətini ört-basdır etmək üçün istifadə edərək qəbuledilməz bəyanatlar verməyə başladı. 2020-ci il iyulun 2-də isə artıq işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlarla təmas xəttində deyil, birbaşa Ermənistan-Azərbaycan sərhəddinin Tovuz rayonu ərazisində təxribat törədərək mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya qurğularından istifadə etməklə hücuma cəhd etdilər. Bu artıq Ermənistan üçün onsuz da kövrək olan atəşkəs rejimi limitinin son həddi idi. Doğrudur, Azərbaycan Ordusu düşmənin layiqli cavabını verdi, ancaq bununla məsələ bitmirdi və Ermənistana layiq olduğu yer mütləq göstərilməli idi.

Sanki Azərbaycanın hərbi-siyasi rəhbərliyinin səbri və təmkini ilə oynayırmış kimi, sentyabrın 27-də Ermənistan təmas xəttində növbəti təxribata cəhd etdi. Bu isə artıq işğalçı dövlətin sonunun başlanğıcı oldu. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə bütün təmas xətti boyu əks-həmlə əməliyyatına başladı.

Müharibə başlayandan bu günə qədər bir çox beynəlxalq siyasi dairələrdə davam edən diskussiyaların əsas suallarından biri də Azərbaycanın niyə məhz sentyabrın sonunda döyüş əməliyyatlarına başlamasına qərar verməsidir. Bununla bağlı müxtəlif mülahizələr ola bilər. Ancaq bir amili unutmaq olmaz ki, Azərbaycanın taleyi, onun təhlükəsizliyi ilə bağlı qərarları istisnasız olaraq Prezident İlham Əliyev verir və o, da belə bir məsuliyyətli addımı, çox-çox irəlini görmədən, uğur qazanacağına əmin olmadan qətiyyən atmazdı.

Prezident İlham Əliyev isə dövlət xadiminə və müdrik siyasətçiyə xas olan intuisiyası ilə hadisələrin yekununu aydın görür və hətta müharibənin ilk günlərində belə hansı danışıqların aparılacağını, Paşinyanın nədən və nə üçün imtina edəcəyini də gözəl bilirdi. Əgər belə olmasa müharibə ilk mərhələdə Füzuli azad ediləndən, sonrakı mərhələlərdə Cəbrayıl, daha sonra Zəngilan, bundan sonra Qubadlı rayonları və digər ərazilər işğaldan azad edilərkən də dayana bilərdi və bunun nəticələri təbii ki, Ermənistan tərəfi üçün indikindən qat-qat müsbət, bizim üçün isə ola bilsin indiki kimi olmaya bilərdi.

Beləliklə, 44 günlük müharibə niyə məhz sentyabrın 27-də başladı? Bunun cavabının bir qismini - Azərbaycanın son 17 ildə həyata keçirdiyi strateji layihələr, xarici siyasət sahəsində əldə olunan uğurlar, BMT üzvlüyünə qəbul olunduğumuz sərhədlər çərçivəsində ölkənin ərazi bütövlüyünün beynəlxalq hüquqi müstəvidə daha da möhkəmləndirilməsi, işğal olunan torpaqların dərhal və qeyd-şərtsiz boşaldılması haqqında BMT TŞ-nin qətnamələrinin icrası ilə əlaqədar beynəlxalq səviyyədə dəstək və sair məsələləri qismən açıqlamışdıq. Yəni müharibə aparmaq üçün Azərbaycana tam haqq qazandıracaq hüquqi baza və beynəlxalq rəy formalaşdırılmışdı. Demək ki, torpaqların azad edilməsinə başlamaq üçün əlverişli məqamı gözləmək lazım idi. 2020-ci ilin sentyabrında belə bir məqam artıq yaranmışdı.

### Azərbaycan torpaqları azad edilmədən Cənubi Qafqazda sülhə təminat yoxdur

Son illər dünyada gedən siyasi kataklizmlər baxımından, günün daha bir reallığı ABŞ-ın və Qərbin uzun illərdir sanksiyalara məruz qoyduğu Rusiya üçün strateji cəhətdən vacib olan Cənubi Qafqazda sülhün Qarabağ münaqişəsindən asılı olduğu və onun açarının da Ermənistanda deyil, məhz Azərbaycanda olduğudur. Bu, birmənalı belədir, çünki Azərbaycan 28 ildə dönə-dönə göstərdi ki, onun torpaqları işğaldan qurtarmayınca, regionda hər an müharibə alovlana bilər.

1993-cü ildən bəri ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev səbrlə, müdrikcəsinə, heç bir siyasi avantüraya uymadan, çox böyük siyasi uzaqgörənliklə, danışıqlar prosesində heç bir güzəştə getmədən zəfər yürüşünə hazırlaşırdılar. Ölkədaxili müxalifətin tənqidləri öz yerində, ermənipərəst beynəlxalq güclərin sərt təzyiqlərini mahir diplomatik gedişləri ilə neytrallaşdıran Prezident İlham Əliyev sözün əsl mənasında Vətənini canı qədər sevən həqiqi dövlət xadimi kimi müstəsna xidmətlərə imza atdı.

Qərbdən və Avropadan getdikcə sıxışdırılan Rusiyaya isə Şərqin geniş iqtisadi bazarlarına çıxmaq, uzunmüddətli sanksiyalar səbəbindən öz iqtisadiyyatını inkişaf etdirmək üçün Asiya ilə Şərqin və Avropanın geniş, müasir nəqliyyat, tranzit imkanlarına malik mühüm geostrateji mərkəzlərindən olan Azərbaycan, bütün sahələrdə dalana dirənmiş Ermənistandan daha vacib ölkədir.

Daha bir reallıq isə ondan ibarətdir ki, Rusiyanın postsovet məkanında güc tətbiqetmə inhisarçılığı çox sürətlə geridə qalmağa başlayır. Bunu bir çox xarici ekspertlər də etiraf edirlər ki, Azərbaycanın Qarabağ münaqişəsinin güc yolu ilə həllinin bu reallığı təsdiq etdiyinə şübhə ilə yanaşmağa heç bir səbəb ola bilməz.

Bunu əyani təsdiq edən faktlardan biri saziş imzalanandan dərhal sonra, münaqişənin ikinci tərəfi olan Ermənistanda yüz minlərlə erməni etirazçının Yerevanın küçələrinə axışaraq bu sənədi xəyanət və təslimçilik aktı kimi qiymətləndirmələridir. Onlar bu gün də bunda ölkənin baş naziri Nikol Paşinyanla yanaşı, həm də başqa dövlətləri günahlandırırlar.

### Böyük Qələbəyə qərəzli don biçməyin!

44 günlük müharibədə qazanılan Qələbə dövlət başçısı, Ali Baş Komandan olaraq İlham Əliyevin strateji düşüncəsi sayəsində Azərbaycanda reallaşdırılan iqtisadi, siyasi, hərbi layihələrin məntiqi nəticəsidir. Əslində, İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi 17 ildə iştirak etdiyi bütün tədbirlərdə və apardığı bütün danışıqlarda münaqişə ilə bağlı baxışlarını açıqlayarkən, birmənalı olaraq bu problemin danışıqlar yolu ilə yanaşı, müharibə yolu ilə həllinin olduğunu da bəyan edirdi və sentyabrın 27-də müharibəni seçməsinə baxmayaraq, hərbi-siyasi qələbə çalmaqla beynəlxalq ictimaiyyətin tənqidlərindən çox böyük ustalıqla yayınmağı bacardı.

Buna baxmayaraq, Azərbaycanda radikal müxalifət qüvvələri və beşinci kolonun nümayəndələri Ermənistan üçün kapitulyasiya aktına bərabər Azərbaycan-Ermənistan və Rusiya üçtərəfli barış sazişini birmənalı qarşılamadılar. Sazişdə hələ işğaldan azad olunmayan 3 rayonun boşaldılması bəndinə yanaşma da fərqli idi və bu məsələlər ətrafında sosial şəbəkələrdə müəyyən qüvvələr tərəfindən hay-küy qaldıranlar da az deyildi.

Birinci Qarabağ savaşı zamanı azərbaycanlılara qarşı törədilən erməni barbarlığını, erməni vandalizmini, Azərbaycan Ordusunun hər hansı formada ermənilərə qarşı törədəcəyi çox ciddi nəticələrə gətirib çıxara bilərdi. Bunu Azərbaycan Ordusu deyil, ermənilər özləri özlərinə qarşı törədib Azərbaycan Ordusunun, qalib Azərbaycan əsgərinin adına yazacaqdılar və dünya da, ən azından xristian Qərbi bunu eynən bu cür qəbul edəcəkdi. İlham Əliyev yaxşı başa düşürdü ki, Azərbaycanın 1992-94-cü illərdə düşdüyü vəziyyətdən fərqli olaraq, Qarabağda yaşayacaq ermənilərin humanitar fəlakəti Qərbin xristian dünyasının diqqətindən kənarda qalmayacaq.

Bütün bunları nəzərə alsaq, o zaman demək lazımdır ki, indi Azərbaycan liderinin və bütövlükdə Azərbaycanın qarşısında açılan əsas cəbhə siyasi və diplomatik cəbhədir. Azərbaycan qarşıya qoyduğu starateji hədəflərə nail oldu və öz ərazi bütövlüyünü bərpa etdi.

Bu gün böyük Qələbəyə qərəzli don biçənlərin kimliyi və hansı məramlara xidmət etməsi bəllidir. "Babam mənə kor deyir..." məsəli olmasa da, bu insanlar "Soroslar bizə kor deyir..." prinsipini rəhbər tutaraq hərəkət edirlər. Çünki onlar radikal müxalifət deyil, əslində onurğa sütunlarının mayası əsasən satqınlıq və xəyanətlə yoğrulmuş, dağınıq strategiyaya və problemli düşüncəyə sahib beşinci kolonun nümayəndələridirlər. Amma onlar özlərinə çox nahaq əziyyət verirlər. Çünki artıq müzəffər Ali Baş Komandan İlham Əliyevin Qələbə yürüşü tarixdə öz qızıl izini qoyaraq yeni, Qarabağda quruculuq yürüşünə başlayıb. Xalq bütün varlığı ilə bu komandanın rəhbərliyi altında quruculuq yürüşünü də qalibiyyətlə başa vuracaq. Buna kimsənin şübhəsi olmasın.

***İlqar RÜSTƏMOV, "Xalq qəzeti"***